# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması”nın təsdiq edilməsi haqqında**

“Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına icazənin forması” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 avqust 2023-cü il

№ 296

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2023-cü il 30 avqust
tarixli 296 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**2023-cü il iyunun 1-dək tikinti obyektinin inşası, yenidən qurulması, yenidən planlaşdırılması, bərpası, təmiri və digər tikinti fəaliyyəti nəticəsində yaradılmış bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış qeyri-yaşayış təyinatlı binaların istismarına**

# İ C A Z Ə

№ ________ ________________
(tarix)

1. Tikinti obyektinin ünvanı (olduqda): ______________________________

2.Tikinti obyektinin istismarına icazə verən orqanın adı: _______________
________________________________________________________________

3. Tikinti obyektinin sifarişçisi (sahibi):______________________________

4. Sifarişçinin (sahibin) tikinti obyektinin yerləşdiyi torpaq sahəsinə hüququnun növü:

________________________________________________________________
(mülkiyyət, istifadə və ya icarə)

5. Torpaq sahəsinin döngə nöqtələrinin koordinatları: _________________

6. Tikinti obyektinin adı (olduqda), döngə nöqtələrinin koordinatları:
________________________________________________________________

7. Tikinti obyektinin istismar təyinatı: _______________________________

8. Tikinti obyektinin əsas texniki göstəriciləri:

| **Göstəricilərin adı** | **Ölçü vahidi** | **Obyektin faktiki vəziyyətini əks etdirən layihə üzrə** |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

Tikinti obyektinin yükdaşıyan konstruksiyalarının dayanıqlılıq, möhkəmlik baxımından istismara yararlılığı, yanğın təhlükəsizliyi tələblərinə cavab verməsi, qaldırıcı qurğuların və digər təhlükə potensiallı qurğu və konstruksiyaların istismara hazırlığı, aidiyyəti qurumlar tərəfindən mühəndis-kommunikasiya təminatı şəbəkəsinin istismara hazırlığına dair aktların təqdim edilməsi baxımından müayinənin nəticəsinə dair istismara hazır olması barədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin ___________ tarixli _____________ nömrəli rəyi nəzərə alınaraq istismarına icazə verilsin.

Tikinti obyektinin istismarına icazə verən orqanın rəhbəri:

________________________ ________________________
(imza) (adı, soyadı)

**M.Y.**

________________________